**"Qərbi Azərbaycan mədəniyyəti" rubrikasında AMEA-nın Folklor İnstitutunun Qərbi Azərbaycan folkloru şöbəsinin bu bölgənin folkloru ilə bağlı gördüyü və görəcəyi işlər haqda danışmaq istəyirik. Qərbi Azərbaycan folkloru şöbəsi bir neçə aydır yaranıb. Millət vəkili, tədqiqatçı Əziz Ələkbərlinin rəhbərlik etdiyi şöbədə hazırda tədqiqat işləri getdiyi bildirilir.**

# Qərbi Azərbaycan folkloru ilə bağlı İnstitut hansı işləri planlaşdırıb...




***Əziz Ələkbərli:** "Artıq bu sahədə tədqiqat ilərinə başlanılıb, ekspedisiyalar təşkil olunub, tədqiqatlar gedir"*

***Elyar İslamoğlu:** "...bütün gücümüzlə çalışırıq"*

Onu da vurğulayaq ki, AMEA Folklor İnstitutu Qərbi Azərbaycanla bağlı görülmüş işlərin sayı çoxdur. Prosesə hələ şöbənin yaranmasından çox-çox əvvəl start verilib və bu istiqamətdə tədqiqatlar aparılıb, dissertasiyalar müdafiə olunub, kitablar çap edilib. AMEA-nın Folklor İnstitutundan redaksiyamıza təqdim edilən hesabatda nışr edilən monoqrafiyaların, kitabların siyahısı əks olunub.

İndiyə qədər Hüseyn İsmayılovun "Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları", Əli Şamilin "Aşıq İsgəndər Ağbabalı (xatirə, məqalə, məktub və sənədlərin işığında)", İslam Ələsgərin "Ələsgər ocağı ilə bağlı yaradılmış dastan-rəvayətlər haqqında", İsrafil Abbaslının "Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri", Tacir Səmiminin "Ağbaba ziyarətgahları", Hüseyn İsmayılovun  "Azərbaycanda Aşık Sanatı: Göyse yörəsi" Maşallah Xudubəylinin "Sazlı-sözlü Göyçə", Nailə Əskərin "Aşıq Nəsibin yaradıcılıq yolu", Tacir Qurbanovun "Xəstə Zərnişanın könül dünyası" , Arzu Məmmədovanın "Şair Məmmədhüseyn: həyatı, mühiti və yaradıcılığı" monoqrafiyaları nəşr olunub. Burada "Miskin Abdal", "Aşıq Nəsib", "Növrəs İman. Seçilmiş əsərləri", "Aşıq Alı", "Göyçə aşıqları və el şairləri-I" "Göyçə aşıqları və el şairləri-II", Hüseyn İsmayılovun " Göyçə dastanları və aşıq rəvayətləri", İsrafil Abbaslı "Azərbaydjanskix istinı v armənskix literaturnıx istoçnikax" topluları nəşr olunub. ir.

"Azərbaycan folkloru antologiyası" seriyasından da institutda xeyli işlər görülüb.

"Azərbaycan folkloru antologiyası, VII cild, Qaraqoyunlu folkloru", "Azərbaycan folkloru antologiyası. VIII cild. Ağbaba folkloru", "Azərbaycan folkloru antologiyası, X cild, İrəvan çuxuru folkloru", "Azərbaycan folkloru antologiyası, XII cild, Zəngəzur folkloru", "Azərbaycan folkloru antologiyası, III cild, Göycə folkloru " (Latın əlifbasında təkrar nəşr), "Azərbaycan folkloru antologiyası. XV cild. Dərələyəz folkloru" "Azərbaycan folkloru antologiyası, XIX cild, Zəngəzur folkloru -2" (Bakı, Nurlan, 2009), "Azərbaycan folkloru antologiyası. XX cild. Loru-Pəmbək folkloru" nəşr olunub. Azərbaycan folklorunun ilkin nəşrlərinə də müraciət eidlib. Məsələn, Məmmədvəli Qəmərlinin "Atalar sözü" (1889, İrəvan). "Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasından çap olunub.

Bütövlükdə, Folklor İnstitunda çox böyük işlər görülüb və təəssüf ki, onların hamısını bir yazıda əhatə etmək çətindir.

İnstitutun yeni elmi-tədqiqat proqramına gəlincə, 2021-2022-ci illərdə "Sosial-demoqrafik proseslər kontekstində Zəngəzur folkloru: milli-mədəni yaddaş və bəşəri zənginlik" (rəhbər: akademik Muxtar İmanov, müddəti: 12 ay) elmi-tədqiqat proqramı icra edilib. Layihə çərçivəsində: 30 dekabr 2021-ci il tarixində AMEA Folklor İnstitutunda "Zəngəzur folkloru: elmi araşdırmalar və perspektivlər" mövzusunda elmi konfrans keçirilib.

5 kitab nəşr edilib:

1. Zəngəzur folkloru: elmi araşdırmalar və qənaətlər. Bakı, Elm və təsil, 2021.
2. Zəngəzur folklor örnəkləri. I kitab. Bakı, Elm və təhsil, 2021.
3. Zəngəzur folklor örnəkləri. II kitab.Tərtibçi: E.Talıblı. Bakı: Elm, 2022, 428 s.
4. Zəngəzur: tarixi məkan və milli yaddaş (elmi araşdırmalar toplusu). Elmi redaktoru: akademik M.İmanov. Bakı: Elm və təhsil, 2022.
5. Zəngəzur folkloru: milli-mədəni düşüncə və çağdaş elmi yanaşmalar (elmi araşdırmalar toplusu). Bakı: Elm, 2022.

Müdafiə olunmuş dissertasiyalara gəlincə, bunlar Alı Alıyevin "Azərbaycan folklorunun regional füsusiyyətləri" (Dərələyəz folklor nümunələri əsasında), Altay Məmmədlinin "Göyçəli Aşıq Nəcəfin həyat və yaradıcılığı", Məmmədova-Rəhimova Xatirənin "XIX əsr Göyçə el şairi Şişqayalı Aydının yaradıcılığı", Dadaşova Arzunun "El şairi Məmmədhüseyn: həyatı, mühiti, yaradıcılığı", Tacir Qurbanovun "Ağbaba aşıq mühiti",

Nailə Əskərin "Aşıq nəsibim dövrü, mühiti və yaradıcılıq yolu",

Fəxrəddin Baxşəliyevin "Təsəvvüf ənənələri və Aşıq Ələsgər", Nemət Qasımovun "Zodlu Abdullanın yaradıcılığı", Sevinc Əlləzovanın  "Növrəs İman: dövrü, həyatı, yaradıcılığı"dır. Müdafiəyə isə Əziz Ələkbərlinin "Qərbi Azərbaycan folklorunda tarixilik və regional-etnik xüsusiyyətlər" dissertasiyası hazrlanıb.

2023-sü il üçün nəşr ediləcək kitabların da siyahısı var. Qeyd olunur ki, AMEA-nın Zəngəzur folkloru ilə bağlı elmi-tədqiqat proqramı növbəti bir ildə də ("Zəngəzur folklorunun milli-mədəni yaddaş və bəşəri zənginlik kontestində semantik analizi" adı ilə) davam etdiriləcək.

Folklor İnstitutu Elm Fondunun 2023-cü il üçün Əsas qrant müsabiqəsinə "Qərbi Azərbaycan folklor mühitləri çağdaş elmi yanaşmalar kontekstində" layihəsini təqdim etmişdir

2023-cü ilin elmi-tədqiqat planlarına daxil edən tədqiqatlara gəlincə, vurğulanır ki, bunlar  Qərbi Azərbaycan folklorunda tarix"i  (icraçı Əziz Ələkbərli), "Qərbi Azərbaycan folklorunun toplanması, tərtibi və nəşri" (2023-2026, kollektiv), "Ağbaba folklorunda qaçaq mövzusu" (2022-2023, Tacir Səmimi), Yeni toplanmış materiallar əsasında iki folklor toplusunun hazırlanması və nəşridir.

AMEA-nın Folklor İnstitunun Qərbi Azərbaycan Folkloru şöbəsinin müdiri Əziz Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, Qərbi Azərbaycan folkloru şöbəsində proses başlanılıb: "Bilirsiz ki, AMEA-da Qərbi Azərbaycanla bağlı üç şöbə yaradıldı, onlardan biri də Folklor İnstitutunda yaradılan Qərbi Azərbaycan folkloru şöbəsidir. Artıq bu sahədə tədqiqat ilərinə başlanılıb, ekspedisiyalar təşkil olunub, tədqiqatlar gedir.. Azərbaycanın hər bölgəsində yaşayan Qərbi azərbaycanlılardan məlumatlar toplanacaq".

AMEA-nın Folklor İnstitunun Qərbi Azərbaycan folkloru şöbəsinin müdir müavini, filologiya üzrə fəlsəfə doktoru Elyar İslamoğlu da bizimlə söhbətində "Ekspedisiyalar fəaliyyətdədir,  folklor nümunələrini toplamaqda, Qərbi Azərbaycanla bağlı elmi işləri, illik plan işlərini də yazmaqda davam edirik. Yəni böyük sürətlə fəaliyyət göstəririk. Bu istiqamətdə bütün gücümüzlə çalışırıq. Burada Qərbi Azərbaycan İcması da yaxından  iştirak edir. İşimiz davam edir" - deyə bildirdi.

***İradə SARIYEVA***